Food and Agriculture
Organization of the
United Nations



# KƏND ƏRAZILƏRINDƏ YAŞAYAN QADINLARIN KƏNDIN DAVAMLI İNKIŞAFININ SOSIAL-IQTISADI VƏ GENDER ASPEKTLƏRI ÜZRƏ İMKANLARININ ARTIRILMASINA DƏSTƏK

Layihə FAO-Türkiyə Tərəfdaşlıq Proqramı çərçivəsində
Türkiyə Hökuməti tərəfindən maliyyələşib

**Layihə FAO-Türkiyə Tərəfdaşlıq Proqramı çərçivəsində Türkiyə Hökuməti tərəfindən maliyyələşib - Türkiyə və Azərbaycan GCP/SEC/007/TUR**

**Layihə FAO-Türkiyə Tərəfdaşlıq Proqramı çərçivəsində Türkiyə Hökuməti tərəfindən maliyyələşib Layihə iştirakçıları və həyata keçirən qurumlar:** Türkiyənin Ərzaq, Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi (ƏKHN), Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi (KTN), FAO-nun Mərkəzi Asiya üzrə Subregional Ofisi, FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi, FAO-nun Sosial Siyasətlər və Kənd Təsisatları Bölməsi (ESP)

**Layihənin Türkiyədə Pilot sahələri:** Antalya, Kars və Kastamonu

**Layihənin Azərbaycanda Pilot sahələri:** Xaçmaz, Salyan və Samux

FAO-Türkiyə Tərəfdaşlıq Proqramı çərçivəsində 2014-cü ildə başlayan bu layihə Türkiyə və Azərbaycanda təşkilatların və kənd təsərrüfatı yayım və məsləhət xidməti əməkdaşlarının bacarıqlarını artırmaqla kənd qadınları üçün göstərilən xidmətləri yaxşılaşdırmaq üçün hazırlanıb.

Layihənin başlıca məsədi kənd qadınlarının sosial-iqtisadi inteqrasiyasını təşviq etməkdən və onların gəlir yaratmaq bacarıqlarını artırmaqdan ibarətdir. Gender yönümlü kənd təsərrüfatı yayım və kənd məsləhət xidmətlərini nəzərdə tutmaqla və göstərməklə layihə bu məqsədə öz töhfəsini vermişdir. ƏKHN-in Təlim, Yayım və Nəşriyyat Şöbəsinin Kənd Qadın Xidmətləri bölməsinin qabaqcıl təcrübələrindən də istifadə edilmişdir. Layihə kənd qadınlarının kənd təsərrüfatı istehsalı və bununla əlaqədar fəaliyyətlər sahəsindəki bilik və bacarıqlarının artırılmasına, eləcə də fermerlərin, xüsusilə qadın fermerlərin ehtiyaclarına cavab verən tələb-yönümlü proqramların tərtib edilməsinə kömək etmək məqsədi ilə alət və metodların hazırlanmasına böyük səy göstərmişdir.

Uzunmüddətli perspektivdə, gözlənilir ki, daha effektli xidmətləri hədəfə almaqla və çatdırmaqla dövlət yayım və kənd məsləhət xidmətləri kənd qadınlarına daha səmərəli şəkildə yanaşa biləcəklər. Kənd qadınları kənd təsərrüfatı istehsalı və iqtisadiyyatın şaxələndirilməsi sahəsində öz biliklərini, bacarıqlarını və potensialını artıracaqlar, bu isə kənd qadınlarının gəlir yaratmaq bacarıqlarını və ailə təsərrüfatında ərzaq təhlükəsizliyi və dolanışıq vasitələrini yaxşılaşdırmaqla sosial-iqtisadi inkişafa gətirib çıxaracaq.

Layihə FAO-nun yoxsulluğun azaldılması sahəsində səylərinə və kənd xidmətlərinin təminatında innovasiyaların dəstəklənməsinə, həmçinin kənddə kasıb təbəqənin infrastrukturin inkşafına əlçatanlğına töhfə vermişdir.

## Layihənin əhəmiyyəti

Kənd təsərrüfatı Türkiyə və Azərbaycan iqtisadiyyatında və kənd ictimaiyyətində aparıcı rola malikdir. Təsərrüfatçılıq dolanışıq mənbəyi (istehsalın hamısı ailə tərəfindən istehlak olunur) və yarım-dolanışıq mənbəyi kimi (istehsalın bir hissəsi ailə tərəfindən istehlak olunur) hər iki ölkənin kənd təsərrüfatının mühüm xüsusiyyətidir, lakin bu təsərrüfatlar aşağı məhsuldarlıqla xarakterizə olunurlar və istehsal olunan məhsulun çox cüzi bir hissəsi çox vaxt aşağı qiymətlərlə satılır.

Hər iki ölkədə qadınlar ailə təsərrüfatı fəaliyyətlərinə kifayət qədər qatılırlar, lakin onların rolu çox zaman etiraf edilmir. Qadın fermerlərin ehtiyaclarına və problemlərinə cavab verən proqramlar olmadığına görə kənd məsləhət xidmətləri onların tələbatlarına çox vaxt adekvat cavab vermir. Qadınların belə xidmətlərə məhdud çıxışı ərzaq təhlükəsizliyinin təmin edilməsində və qida ehtiyaclarının ödənilməsində onların məhsuldarlığına mənfi təsir edir.

Məsləhət xidmətlərinin effektivliyini yaxşılaşdırmaq və qadın fermerlərin potensialını artırmaq üçün yayımda ‘texnologiyanın ötürülməsi’ndəki ənənəvi yanaşmadan çox-iştirakl, gender baxımından həssas və tələb yönümlü məsləhət metodlarının tətbiqinə keçmək tələb olunur.



Photo credits: ©FAO/Tariq Tinazay (cover); ©FAO/Ami Vitale

# Faktlar Və Rəqəmlər

### Türkiyə

- Türkiyənin ümumi ərazisinin təxminən yarısı kənd təsərrüfatı üçün istifadə olunur (Dünya Bankı 2015)
- 2015-ci ildə işçi qüvvəsinin 20% kənd təsərrüfatı ilə məşğul olub (DB, 2015)
- Türkiyədə işləyən qadınların 32% kənd təsərrüfatı ilə məşğuldur (DB 2015)
- 2006-cı il siyahıyaalmasına görə Türkiyədə 3.022 milyon kənd təsərrüfatı holdinqi (torpaq sahibi) mövcuddur, və onların əksəriyyəti ailə təsərrüfatlarıdır və ailə əməyindən istifadə edir (TürkSat 2006).
- Qadınlar kənd təsərrüfatına kifayət qədər töhfə verirlər, lakin məhdud məktəb təhsili və kreditlərə çıxış, istehsal qruplarında aşağı səviyyədə iştirak, həmçinin ağır təsərrüfat işi və ailə qayğısı daxil olmaqla bir çox gender-səciyyəvi faktorlar onların potensialının qarşısını alır.

### Azərbaycan

- Təsərrüfatlar əsasən kiçikdir: Azərbaycanın kənd təsərrüfatı məhsulunun 90%-i 3 hektar yaxud daha az torpaq sahəsinə malik ailə təsərrüfatları tərəfindən istehsal edilir (İFAD 2014).
- Azərbaycand işçi qüvvəsinin 37% , o cümlədən işləyən qadınların 44% kənd təsərrüfatı ilə məşğul olur (DB, 2013).
- Kənd təsərrüfatı ilə ciddi məşğul olmalarına baxmayaraq, onlar məhdud çeviklik və ağır məişət işi, eləcə də əvəzi ödənilməyən ailə qayğısı kimi gender-səciyyəvi məhdudiyyətlərlə üzləşirlər.

# Metodologiya

### Bacarıqların inkişaf etdirilməsi kateqoriyalarının birləşdirilməsi

Layihə bacarıqlara ehtiyacların qiymətləndirilməsi, təlimçilərin təlimi üçün materialların hazırlanması, boşluqların təhlili, təlimçilərin pilot təlimlər keçməsi, kənd qadınlarının pilot təlim keçmələri, tarlaya baxış və təlim səfəri daxil olmaqla bacarıqların inkişaf etdirilməsinin müxtəlif kateqoriyalarını müvəffəqiyyətlə əlaqələndirib.

### Etməklə öyrən

Kənd qadınlarının ehtiyaclarının qiymətləndirilməsində fəal iştirak etməklə məsləhət xidməti işçiləri qadın fermerlərin ehtiyaclarını necə qiymətləndirməyi öyrənmişlər və fokus (bir yerə cəmləşmiş) quplrara dəstək verməklə, həmçinin müsahibələr və gender analizi aparmaqla qadınların təcrübələrini daha yaxşı anlamağa nail olmuşlar. Kənd qadınlarının təlimlərində iştirak etməklə məsləhətçilər gender-yönümlü təlim metodları üzrə "hazırcvab şəxs"ə çevrilmişlər və təlim mövzularına dair malik olduqları texniki biliklərini genişləndirmişlər.

### Təlim almanın ölçülməsi

Layihə təkcə təlimə cəlb edilmiş adamların sayını qeydə almaq deyil, bacarıqların inkişaf etdirilməsi sahəsində problemlərin həllinə yönəlmiş və prosesin əsas hissəsi hesab olunan təlim nəticələrinin ölçülməsi istiqamətində bəzi yeni alətlərin tətbiqinə diqqət yetirib. Bilikdə baş verən dəyişiklikləri dərk etmək və təlim fəaliyyətlərinin fərdin davranışına və təcrübəsinə təsirini öyrənmək üçün bilik, münasibət və təcrübə metodları, həmçinin fərdi fəaliyyətin planlaşdırılmasından istifadə edilib.

### Haşiy

"Bizim şöbə müdiri də təlimlərdən bəhrələnib. Beləliklə, bizim administratorların maariflənməsi artıb və qadın məsləhətçilərin hərəkət etmələri ilə bağlı (məs nəqliyyat vasitəsinin olmaması) problemlər həllini tapıb."

*Türkiyədə təlimçilərin təlimində iştirak etmiş Antalyadan olan yayım işçiləri.*



©FAO/Hajnalka Petrics

## Ehtiyacların qiymətləndirilməsinin təhlili

Ehtiyacların qiymətləndirilməsinin məqsədi təlim proqramlarındakı boşluqları və əməkdaşların bununla əlaqədər bacarıqlara olan ehtiyaclarını, eləcə də kənd qadınlarının problemlərini və və onların biliklərə olan ehtiyaclarını müəyyənləşdirmək olub. Ehtiyacların qiymətləndirilməsinin nəticələri məsləhət xidməti əməkdaşları və kənd qadınları üçün təşkil olunan təlimlərdə istifadə olunacaq metodologiya və təlimlərin məzmununun müəyyən edilməsinə imkan yaradıb.

### Türkiyə

In all the three pilot provinces, face-to-face meetings Hər üç pilot bölgədə vitse-qubernatorlar və Ərzaq, Knd Təsərrüfatı və Heyvandarlıq Nazirliyinin bölgə üzrə rəhbərləri ilə üzbəüz görüşlər və müsahibələr aparılıb. Qadın fermerlərin ehtiyaclarını qiymətləndirmək üçün onlarla qrup görüşlər keçirilib.

Ehtiyacların qiymətləndirilməsinə 30 yayım işçisi ilə aparılan sorğu da daxil edilib və aparılan sorğu qadın fermerlər tərəfindən tələb olunan xidmətləri effektli təmin etmək üçün mövcud yayım mexanizmləri, imkanlar və məhdudiyyətlər barədə əlavə məlumat əldə etməyə imkan verib. Qadın fermerlərin kənd məsləhət xidmətlərinə çıxışı ilə bağlı onların problemlərini və bu problemlərin potensial həllini tapmaq üçün digər bir sorğu forması kənd qadınları tərəfindən doldurulub. Ümumikdə sorğuda 166 qadın fermer iştirak edib.

#### Sorğunun nəticələri

Ehtiyacların qiymətləndirilməsi göstərir ki, bir çox kənd qadınları məhdud məktəb təhsilinə malikdir və bəzi bölgələrdə yaşlı qadınların savadsızlığı problemdir. Yayım işçiləri təlim materialı kimi əsasən yazılı sənədlərdən istifadə edirlər, bu isə bütün qadınların effektli təlim keçmələrini çətinləşdirir.

- Mədəni səbəblərə görə qadınların öz qohumlarından başqa digər kişilərlə qarşılıqlı əlaqə yaratması qəbul olunmur. Yayım qurumunun bölgələrdəki idarələrində yayım işçilərinin əksəriyyətinin kişi olmasını nəzərə alsaq, belə vəziyyət bəzi kənd qadınlarının təlimə çıxışını azaldır.
- Uşaqlara qulluq göstərilməsinə qadınların məsul olmasını nəzərə alsaq təlim zamanı uşaqlara qulluq göstərilməsinin təmin ediməsi vacibdir.
- Qadınlar müasir informasiya və komunikasiya texnologiyalarına (İCT) məhdud çıxışa malikdir.
- Çox az qadın kreditlərə çıxış imkanına malikdir.
- Qadınların kooperativlərdə yaxud istehsalçı qruplarda iştirakı aşağıdır.
- Digər bir çətinlik ağır iş yükü, təsərrüfat alətləri və texnikalarına dair, o cümlədən zərəverici və xəstliklərin müalicəsi sahəsində bilgilərin olmaması, suvarma texnologiyalarının olmaması və təsərrüfatdan-kənar iş imkanının kifayət qədər olmamasıdır.

### Azərbaycan

Azərbaycanda ehtiyacların qiymətləndirilməsi Kənd Təsərrüfatı Nazirliyi (KTN) və Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzləri (RAEİMM) ilə söhbətlər aparmaqla həyata keçirilib. Üç pilot bölgədə fəaliyyət göstərən 17 kənd məsləhətçisi ilə müsahibə aparılıb. Kənd qadınlarının ehtiyacları fokus qruplarla keçirilən üç toplantı vasitəsi ilə müəyyən edilib ki, həmin toplantılarda üç pilot bölgədən 90 kənd qadını iştirak edib.

#### Sorğunun nəticələri

- Əsas bitkilər fərqli olsalar da, kişilərin və qadınların kənd təsərrüfatında rolu üç pilot rayonun hər birində, Xaçmazda, Salyanda və Samuxda oxşardır. Ümumiyyətlə, kişilər evdən kənarda işləyir, və suvarma işləri, tarla bitkiləri əkinləri, kənd təsərrüfatı məhsullarının marketinqi, və heyvandarlıq onların üzərinə düşür. Ev işləri, uşaqlara qulluq, həyətdə tərəvəz əkinləri, sağım və süd məhsullarının emalı, həmçinin ev quşlarına baxmaq qaınların üzərinə düşür.
- Hər üç rayonda kişi və qadınların 90%-dən çoxu orta təhsilə malikdir. Bu fakta baxmayaraq, əksər qadınlar özlərinin ailə təsərrüfatlarında əvəzi ödənilməyən işçi kimi çalışırlar.
- Hər üç rayonda, məşğulluq, torpağa sahiblik, təlimlərdə iştirakla bağlı suallara verilən cavablar göstərir ki, qadınlar bu məhsuldar resurslara və imkanlara qeyri-bərabər çıxışa malikdir.
- Gender bərabərliyi və qadın hüquqları ilə bağlı maariflənməyə və kənd təsərrüfatı təlimlərinə ehtiyac var.
- Müsahibələrdə məhdud hərəkət, uşaqlara qulluq sahəsində xidmətlərin olmaması, qadın məsləhətçilərin sayının az olması, və qadınların kənd məsləhət xidmətlərinə çıxışının əhəmiyyəti barədə maariflənmənin olmaması və bəzi digər problemlər göstərilib.



©FAO

# Təlimçilərin təlimi

Təlimçilərin təlimi layihə fəaliyyətlərinin mərkəzi elementi kimi Türkiyədə və Azərbaycanda həyata keçirilib və bu təlimlərdə layihəyə qatılan hər iki ölkənin Nazirliklərinin mərkəzi qurum və bölgə idarələrinin 69 nəfər yayım işçisi və məsləhətçisi iştirak edib.

Vəziyyətin analizi və məsləhətçilərin və kənd qadınlarının bacarıqları üzrə ehtiyacların qiymətləndirilməsi əsasında təlim, iştirakçıların ehtiyacları və hazırlığını, eləcə də qadın fermerlərə məsləhət xidmətinin göstərilməsində əsas çətinlikləri nəzrə alaraq keçirilib.

Təlimin əsas məqsədi gender münasibətləri, gender bərabərliyi məsələsinin nə üçün onların işində önəmli olması barədə iştirakçılar arasında məlumatlılığı və anlayışı artırmaq və onların bu məsələyə girişməsi üçün öz fəalyyətlərində hansı müvafiq və işlək dəyişikliklər aparmalarını anlatmaqdır. Qadın və kişi fermerlərin məsləhət xidmətlərinə qarşılanmayan və xüsusi ehtiyaclarını etiraf etmək üçün hərtərəfli iştirak etməklə aparılan çalışmalar, belə ki, gündəlik və mövsümi işlərin təqviminin hazırlanması, qadınların və kişilərin müxtəlif təsisatlara çıxışının sosial xəritələşdirilməsi, maraqlı tərəflərin analizinin aparılması, ehtiyacların analizi, SWOT analizi vasitəsi ilə iştirakçılar öz bacarıqlarını artırmışlar. Onlar həm də bu ehtiyacların qarşılanması üçün təlim və məsləhət xidməti metodlarında tələb olunan dəyişiklikləri müəyyən etmişlər. Hər iki təlim üzrə iştirakçıların fikirləri təlimçilərin təlimi üzrə hazırlanmış yekun təlimata daxil edilmişdir.

## Türkiyə

Təlimçilərin təlimi 8-11 dekabr 2014-cü il tarixdə Türkiyədə Antalya şəhərində keçirilib. Təlimdə 30 yayım işçisi (hər pilot bölgədən 10 nəfər) və Nazirliyin Mərkəzi ofisindən 3 nümayəndə (22 qadın və 11 kişi) iştirak edib. İştirakçlar gender analizini, ehtiyacların müəyyən edilməsini, gender-yönümlü isntitutisional analiz, maraqlı tərəflərin analizini, eləcədə gender-həssaslı SWOT analizini praktikada tətbiq etməklə bacarıqlar qazanmışlar.

İştirakçıların qiymətləndirilməsi göstərdi ki, KMX məsləhətçiləri öyrəndiklərini istifadə etməyi planlaşdırırlar və çoxtərəfli iştirak metodologiyası, belə ki, maraqlı tərəflərin analizi və institusional xəritələşmə barədə öyrəndiklərini xüsusilə qiymətləndirirlər.



©FAO/Hajnalka Petrics

## Tarladan Səslər

"Mən ehtiyacların analizi və problemə dair heç bir tədqiqat aparmadan kənd təsərrüfatı məsləhət və yayış xidməti göstərirdim. Sizin təlimdən sonra, kənd təsərrüftı yayım mövzusu seçmək üçün mən kəndlilərin yaxud qadın fermerlərin ehtiyaclarını, onların tələbatını, seçimini, prioritetləri və sosial-iqtisadi xüsusiyyətləri nəzərə almaqla ehtiyacların analizini aparacam."

*Türkiyədə təlimçilərin təlimində iştirak etmiş Karsdan olan yayım işçisi*

"Sizin təliminiz əməyin gender bölgüsünü aparmaqla qadınlar üçün təlim fəaliyyətlərini və təlim vaxtını müəyyən etmək üçün ehtiyacları dərk etməkdə mənə kömək etdi."

*Türkiyədə təlimçilərin təlimində iştirak etmiş Antalyadan olan yayım işçisi*

## Azərbaycan

Təlimçilərin təlimi 2016-cı il aprel ayının 5-dən 8-dək Bakda, Azərbaycanda keçirilib. Təlimdə 12 nəfər Guba RAEİMM-dən, 9 nəfər Salyan RAEİMM-dən və 9 nəfər Gəncə RAEİMM-dən, Kənd Təsərrüfatı Nazirliyin mərkəzi idarəsindən 3 nümayəndə olmaqla 33 məsləhətçi (48% qadın 52% kişi) iştirak edib.

İştirakçılar əsas gender anlayışı barədə bilgi əldə etdilər və praktik olaraq təbiq etməklə müxtəlif gender fəaliyyətlərinin analizini aparmağı öyrəndilər və kənddə vəziyyətin qiymətləndirilməsi alətini təcrübədən keçirdilər. Təlim alanlar həmçinin kənd məsləhət xidmətləri ilə bağlı gender problemlərinə dair müxrəlif vəziyyətləri müzakirə etdilər. Müzakirələr zamanı onlar bu problemləri daha yaxşı dərk etməkdə onlara imkan verəcək və bu problemlərin öhdəsindən gəlmək üçün hansı yanaşma və metodların daha effektli olması barədə qərar vermək üçün yenicə öyrəndikləri vasitələr barədə təkliflər verdilər.

İştirakçıların 70% göstərdi ki, onlar öyrəndiklərini öz işlərində tətbiq edəcəklər. Onların çoxu bölgələrdə gender məsələsinə dair oxşar seminarlar keçirilməsini təklif etdiər. KAP metodundan istifadə etməklə aparılan qiymətləndirmə göstərdi ki, təlim alanlar çoxiştiraklı gender analizi vasiələrindən istifadə etməklə təlimdən sonra gender məsələləri barədə özlərini daha inamlı və məlumatlı hiss edirlər.

## Haşiyə

"Seminardan sonra mən vizual vəsaitlərdən və materiallardan daha yaxşı istifadə edəcəm, həmçinin qadınların vaxt çatışmazlığı ilə bağlı problemlərinin aradan qaldırılması və həllinə kömək etmək üçün ailə təsərrüfatında əmək bğlgüsü aparacam."

*Azərbaycanda təlimçilərin təlimində iştirak etmiş Qubadan olan kənd məsləhətçisi*

"Bu seminardan əvvəl mənim gender məsələsi barədə bilgim yox idi. Bu seminarda iştirakım mənə geniş bilik verdi: xüsusilə çalışmalar, müxtəlif müzakirələr və fikirlər gender məsələsi barədə biliyimi artırmaqda mənə kömək etdi."

*Azərbaycanda təlimçilərin təlimində iştirak etmiş Samuxdan olan kənd məsləhətçisi*

# Kənd qadınlarının təlimi

## Türkiyə

Türkiyədə sahibkarlıq, məhsul hasilatı və marketinqi mövzusunda keçirilən təlimdə üç pilot bölgədən 30 kənd qadını iştirak edib.  Mövzu aparılan ehtiyacları analizi əsasında müəyyən edilib.

Təlim  milli məsləhətçi tərəfindəm 6 yayım işçisinin - təlimçilərin təlimində iştirak edən və ehtiyacların qiymətləndirilməsi çalışmasının aparılmasına cəlb edilmiş - iştirakı ilə aparılıb və onlara şərait yaradılıb ki, məsləhətçinin təlimi necə təşkil etdiyini və çoxtərəfli iştirak metodlarından necə istifadə etdiyini müşahidə etsinlər. Məsləhətçilər və kənd qadınları təlim mövzularına dair texniki məlumatın öyrənilməsində yan-yana işləmişlər.

Təlimin bir hissəsi kimi, qadınların sahibkarlıq fəaliyyətinə mane olan faktorları müəyyən etmək onlardan soruşuldu. Təlim kursu zamanı marketinq, qiymətqoyma, məhsul hasilatının təşviqi və mərhələlərinə dair təlim konsepsiyaları təqdim olunub. Qadınların sahibkarlıq fəaliyyətinin yaxşı bir təcrübəsini görmək istəyən kənd qadınlarının xahişi ilə Nallihan rayonunda uğurlu  krujeva kooperativinə səfər təlimə daxil edilib.  Krujeva toxumaq Türk qadınları üçün ənənəvi əl işidir. Şəhər bazarlarında bəzək krujevasına tələbat olduğu üçün bu gün, bu iş dəyərli gəlir-yaratma imkanı verir, çünki, krujeva hazırlamaq bahalı maşın və avadanlıqdan istifadə etmədən evdə hazırlan bilir.

Təlim fəaliyyətləri zamanl qadınlarla işləmək ehtiyacların qiymətləndirilməsi analizinin nə dərəcədə əhəmiyyətli omasını yayım heyətinə göstərdi.  Bu qiymətləndirmə ilə təlimin məzmunu qadınlarla aparılan müsahibələrdə, qrup görüşlərində və sorğularda ifadə olunan tələblər əsasında tərtib edilə bilər. Təlim haqqında qadınların fikirləri çox müsbət olub: əslində onlar təlimin uzadılmasını xahiş etdilər.  İştirakçılar digər bölgəlrdən olan qadınlarla və yayım sahəsində çalışan məsləhətçilərlə  görüşmək və işləmək imkanını qiymətləndirdilər, və təlimin faydalı və onların ehtiyaclarına uyğun olduğunu bildirdilər.



©FAO

## Azərbaycan

Azərbaycanda heyvandarlıq və süd məhsullarının kiçik-həcmli emalı mövzusunda təlimdə 45 kənd qadını iştirak edib. Qadınların iştirakına şərait yaratmaq məqsədi ilə təlimlər 3 pilot rayonun hər birində keçirilmişdir.  Təlimin mövzusu ehtiyacların qiymətləndirilməsindən sonra seçilmişdir və qiymətləndirilmə zamanı bütün pilot rayonlardan olan kənd  qadınları süd məhsulları və onların emalına daha çox maraq ifadə etmişlər.  Azərbaycanda ailə təsərrüfatlarının çoxu süd məhsullarının kiçik-həcmli emalı ilə məşğul olur, lakin süd istehsalı il boyunca müvafiq olmur və fermerlər süd emalı haqqında  məhdud bilgilərə malikdirlər. Təlimdə, kənd qadınları süd emalında başlıca tələbləri öyrənməyə xüsusi maraq göstərmişlər ki,  bu da süd məhsulunun bazarda satışı zaman onlara əlavə gəlir əldə etmək imkanı yaradacaq.

Təlimçilərin təlimində iştirak etmiş 9 kənd məsləhətçisi həm də kənd qadınlarının təlimində iştirak ediblər. Onlar süd istehsalı sahəsində yeni texniki bilgilər əldə etmək üçün qadınlarla birgə çalışmışlar, və milli məsləhətçi tərəfindən istifadə olunan təlim metodlarını müşahidə etmək imkanına malik olmuşlar. Təlim heyvanlara qulluq məsələlərini və süd emalının bütün mərhələlərini, sağımdan başlayaraq bir çox süd məhsullarının (məs, yağ, yoğurt, pendir) istehsalını əhatə edib. Təlimdə həmçinin qida təhlükəsizliyi məsələsinə xüsusi diqqət yönəlib.

# Təlim səfəri



©FAO/Hajnalka Petrics

Təsərrüfatın şaxələndirilməsi və bununla bağlı dəstək xidmətləri haqqında qabaqcıl təcrübəni öyrənmək üçün təlim səfərinin iştirakçıları İtaliyada bir araya gəldilər.  Türkiyədə və Azərbaycanda qadınların maraq dairəsində olan təsərrüfatın şaxələndirilməsi  İtaliyada yaxşı  qurulmş bir sektordur və özündə sənətkarlıq, təsərrüfat şəraitində emal, təhsil, aqroturizm kimi geniş sahələri ehtiva edir.

İtaliyada qadın fermerlər təsərrüfatın şaxələndirilməsi fəaliyyətlərinə çox yüksək səviyyədə cəlb olunurlar və xüsusi dəstək xidmətlərindən faydalanırlar. Təlim səfəri İtaliya, Türkiyə və Azərbaycandan olan iştirakçılara biznesin şaxələndirilməsi ilə bağlı qadın fermerlərin ehtiyaclarının qarşılanması sahəsində bilik və təcrübə mübadiləsi etməyə imkan yaradıb.


©FAO/SEC

Çox praktik təlim səfərinə dövlət və özəl sektorda çalışan xidmət təminatçıları nümayəndələri ilə görüşlər (Lazio rayon Kənd Təsərrüfatı Departamenti, Donna İmpresa Coldretti- qadın fermerlərin və kənd təsərrüfatı sahibkarlarının professional assosiasiyasının qadın bölməsi, ONLİFA- Qadın sahibkarlar və Kənd Təsərrüfatı İşləri üzrə Milli Müşahidə və Səciyyəvi və Ənənəvi Məhsullar üzrə Xidmət Mərkəzi), qadınların cürbəcür fəaliyyətlərlə məşğul olduğu iki təsərrüfata səfər daxil edilib. Bu, iştirakçılara qadınların problemlərini və ehtiyaclarını, həmçinin göstərilən xidmətlərin onların bu uğurlu biznesinə necə töhfə verdiyini müzakirə etmək və öyrənmək imkanı yaradib. İtaliya mütəxəssisləri qadınlara-yönəlmiş, onları hədəfə alan tələb-yönümlü xidmətlərin təmin edilməsində istifadə etdikləri yanaşma və metodları iştirakçılarla paylaşmışlar. İştirakçılar fermerlərin kiçik-həcmli emal məhsullarının vahid etiket və qablaşdırma ideyasını çox maraqla qarşıladılar. Onlar həmçinin fermerlər tərəfindən qidalanma ilə bağlı uşaqlar üçün didaktik fəaliyyətlərin göstərilməsini və təsərrüfatda uşaq bağçasının yaradılmasını innovativ təcrübə kimi qəbul ediblər və bildiriblər ki, onlar öz xidmətlərində bu fəaliyyətləri təşviq edəcəklər.

## Əldə edilən nailiyyətlər və çıxarılan nəticələr

Layihə məqsədlərinə uyğun olaraq, qadınların ehtiyacları və prioritetlər əsasında müəyyən edilmiş seçilmiş mövzulara dair təlimlərdə 70 kənd qadını iştirak edib. Qadınların tələblərinə cavab verəcək effektli çatdırma metodları vasitəsi ilə gələcəkdə daha çox qadının müvafiq informasiya əldə etməsini təmin etməklə layihə fəaliyyətləri layihənin təsirini artırmağa töhfə vermək potensialına malik elementləri ortalığa qoyub. Bu elementlərə gender-həssas kənd məsləhət xidmətlərinin planlaşdırılması və göstərilməsində 60-dan çox yayım işçisi və kənd məsləhətçisinin təlimi; pilot təlim iştirakçılarının təcrübəsi və fikirləri əsasında tərtib edilmiş çoxtərəfli iştirakla təlimçilərin təliminə dair təlimat daxildir; bu, gələcək təlimlərin aparılmasında istifadə ediləcək və daha böyük təlimçilər ordusu yaradacaq.

Layihə həmçinin təlim səfəri və yekun seminar zamanı iki ökə arasında bilik və təcrübə mübadiləsi aparmaq imkanı yaradıb.

Layihəyə milli mülkiyyət hüququ, mənası birgə-diaqnoz qoy, birgə-tərtib et, birgə- fəaliyyət göstər və birgə-öyrən demək olan CoCoCoCo yanaşmasını tətbiq etməklə, layihənin hər bir fazasında və fəaliyyətlərində iki Nazirliyin Mərkəzi ofislərinin rəhbərlərinin birbaşa cəlb edilməsi ilə təmin edilib.

Layihənin uğur qazanmasında FAO ilə milli tərəfdaşlar arasında daimi koordinasiya və məsləhətləşmə mühüm rol oynamışdır və iştirakçıların ehtiyaclarının vaxtında qarşılanmasına imkan yaratmışdır. Layihə Ərzaq, Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyinin Təlim, Yayım və Nəşriyyat Departamentinin Kənd Qadınlarına Xidmət Bölməsinin texniki ekspertizası və təcrübəsindən böyük fayda görmüşdür.


©FAO/Hajnalka Petrics

Food and Agriculture Organization of the United Nations

REPUBLIC OF TURKEY
MINISTRY OF FOOD AGRICULTURE AND LIVESTOCK

Kənd Təsərrüfatı Nazirliyi

For more information about the project please contact

**FAO-nun Mərkəzi Asiya üzrə Subregional Ofisi**
FAO-SEC@fao.org

**FAO-nun Azərbaycan Respublikasındakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi**
FAO-AZ@fao.org

**Hajnalka Petrics**
Gender və İnkişaf üzrə ekspert
FAO-nun Sosial Siyasətlər və Kənd Təsisatları Bölməsi
Hajnalka.Petrics@fao.org

©FAO 2016